Yazan
18.08.14 14:23 -



Türkiyənin Rusiyadakı səfirliyinin binası atəşə tutulub.
AzNews.az-ın məlumatına görə, yerli media hüquq-mühafizə orqanlarına istinadən yazır ki, atəş ov tüfəngindən açılıb.

“Dobriy Les” şirkətinin baş direktoru, 43 yaşlı Artur Mirzoyanın hədəfi Türkiyənin gerbi olub.

Onun açdığı hər iki atəş hədəfə dəyib.

A. Mirzoyan hadisəni törədəndən sonra gizlənmək istəsə də, səfirliyin binasını mühafizə edən polis onu saxlayıb.

Saxlanılan şəxs hadisənin motivini açıqlamayıb.

Polis ehtimal edib ki, insidentin səbəbi ermənilərin türklərə qarşı uzun illərdən bəri davam edən ədavətdir.

İnsident nəticəsində xəsarət alan olmayıb.